Azerbaijan Society OF MAINE
*Celebrating cultural heritage*

# COVID-19 üçün testdən keçmək



Hər kəsin Mendə genişləndirilmiş test imkanlarından, xüsusi ilə də yüksək riskli demoqrafik vəziyyətiniz varsa və ya simptomlarla qarşılashmısınızsa, faydalanması tövsiyyə olunur. Test COVID-19-u idarə etmək və onun yayılmasının qarşısını almaq üçün kritik bir addımdır ki, biz bununla iqtisadiyyatı etibarlı şəkildə yenidən açmaq və cəmiyyətimizin təhlükəsizliyini təmin etmək üçün planlar həyata keçirtməyə başlaya bilərik.
Testdən keçmək həmçinin Sizin COVID-19-a yoluxub-yoluxmadığınızı və yaxud Sizdə olan simptomların COVID-19-un simptomları olub-olmadığını müəyyən etməyə kömək edir.
**Testdən keçmək hər kəs üçün ödənişsizdir**. Sizin sağlamlıq sığortanız və immigrant statusunuz olmasa belə testdən keçə bilərsiniz.



## Kimlər testdən keçməlidir?

Siz ödənişsiz testdən keçə bilərsiniz, əgər:

1. COVID-19 testi pozitiv çıxan bir şəxslə yaxın ünsiyyətdə olmusunuzsa.
2. Son 14 gün ərzində aşağıdaki simptomlardan hər hansı biri Sizdə olarsa: öskürək, nəfəs darlığı, nəfəsalmada çətinlik, qızdırma, üşütmə, əzələ ağrıları, boğaz ağrısı, dadbilmə və iybilmə qabilliyyətlərinin itməsi, ürək bulanması, qusma, ishal.

## Harada və necə testdən keçmək olar



- Əgər varsa, ilkin tibbi xidmət təminatçınıza (PCP) zəng edin. Onlar Sizə test vermək üçün hara getməli olduğunuz və oraya çatdıqda nə etməli olduğunuz barəsində məlumat verəcəklər
- Əgər ilkin tibbi xidmətiniz (PCP) yoxdursa və testdən keçməyə ehtiyacınız varsa, Men **211-ə** zəng edə bilərsiniz və onlar Sizi yeni pasientlər qəbul edən xidmətlə əlaqələndirə bilər. Sadəcə, **2-1-1-i** yiğmağınız tələb olunur.
- St. Mary's Health System, yaxud Community Clinical Services daxilində xidmətlə əlaqə yaratmaq üçün **207-777-8899** nömrəsinə zəng edərək həkimə müraciət edin
- Central Maine Healthcare System daxilində xidmətlə əlaqə yaratmaq üçün **1-866-834-8343** nömrəsinə zəng edin
  - Portland ərazisində testdən keçmək üçün, getmezdən əvvəl zəng edin:
    1. Maine Medical Center: **207-662-0111**
    2. Mercy Hospital: **207-879-3000**
    3. Greater Portland Health: **207-874-2141**
- Həmçinin, CVS Pharmacy Augustada, Biddefordda, South Portland, və Portland-da maşınınızı tərk etmədən test verə bilmə imkanı təşkil edir.
  1. COVID-19 testi üçün uyğun olub-olmadığınızı müəyyənləşdirmək üçün bəzi suallara cavab verməli olacaqsınız.
  2. **cvs.com/minuteclinic/covid-19-testing** linkinə daxil olun. Registrasiya formasını doldurun və test vermək üçün gedəcəyiniz vaxtı və tarixi seçin.

Test verməyə gedərkən həmişə bütün təhlükəsizlik qaydalarına riayət etməlisiniz.
Əllərinizi yuyun, maskadan istifadə edin və toplum daxilində 6 feet (1.5m) məsafə saxlayın.